DÜNYA

Bişkek Moskvaya nota verib: Vətəndaşının hərbi hissədən qaytarılmasını istəyir

Noyabr 06, 2026



Qardaşı Bayastan Kuştarbek uulunun sözlərinə görə, Rusiya 21 yaşlı Elistan Toktoqulovu müharibəyə göndərmək istəyir.

Qırğızıstanın Moskvadakı səfirliyi Rusiyanın Xarici İşlər Nazirliyinə (XİN) nota göndərərək, öz vətəndaşının vətənə qaytarılmasını tələb edib. Söhbət 21 yaşlı **Elistan Toktoqulov**dan gedir. Yaxınlarının iddiasına görə, gənci işə düzəltmək adı ilə aldadaraq Rusiyaya aparıb, sonradan isə hərbi hissəyə göndəriblər.

Noyabrın 3-də gəncin qohumları Manas şəhərində toplaşaraq ölkə rəhbərliyinə videomüraciət ünvanlayıblar. Elistanın qardaşı **Bayastan Kuştarbek uulu**nun sözlərinə görə, gənc "Instagram"da iş elanı görərək Rusiyada yaşayan bir Qırğızıstan vətəndaşı ilə

əlaqə saxlayıb. Ona yük maşını sürücüsü və mühafizə xidmətinin əməkdaşı kimi bir neçə vakansiya təklif edilib, həmçinin 110 min rubla qədər (1350 dollar) maaş vəd olunub.

Elistan iki həftə əvvəl Qırğızıstandan Rusiyaya yollansa da, işə düzəlmək əvəzinə hərbi hissəyə göndərilib. Yaxınları onun hazırda Voronej vilayətindəki hərbi təlim poliqonunda saxlanıldığını və Ukraynadakı müharibəyə göndərilmək üçün hazırlandığını bildirirlər.

Qırğızıstan XİN-in məlumatına görə, ölkənin Moskvadakı səfirliyi məsələ ilə bağlı Rusiyanın müvafiq dövlət qurumlarına rəsmi məktublar ünvanlayıb. Məktublarda gənci hərbi xidmətə cəlb edənlərin kimliyinin üzə çıxarılması və cəzalandırılması xahiş edilir.

Nazirlik həmçinin vətəndaşlarına müqavilələri və digər rəsmi razılaşmaları imzalamazdan əvvəl diqqətlə oxumağı, yarana biləcək mümkün hüquqi nəticələri mütləq nəzərə almağı tövsiyə edir.

Buna da bax:

Bişkek ilk dəfə təsdiqlədi: Qırğızlar Ukraynada məcburi döyüşdürülür

Qırğızıstan vasitəsilə Rusiyaya 5 milyon avroluq 'Bugatti' gətirilib

Rusiyanın qara siyahısında 104 mindən çox qırğız var

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur